Bayramov, V. Qəhrəman xalqın qalib Ordusu / Vaqif  Bayramov // Xalq qəzeti. - 2021. - 24 sentyabr. - № 204. - S. 3.

Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik.
İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri hazırda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Silahlı qüvvələrimizin müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilən təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.
Bu gün Cənubi Qafqazın ən qüdrətli ordusu olan silahlı qüvvələrimiz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Ötən 18 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, silahlı qüvvələrdə aparılan islahatlar və bunun nəticəsində baş verən keyfiyyət dəyişiklikləri Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı fəaliyyətinin nəticəsidir.
Milli həmrəyliyin, peşəkar rəhbərliyin, səmərəli hərbi strategiyanın və ordumuzun gücü 44 günlük Vətən müharibəsində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Bununla da Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə baxmayaraq, Azərbaycan öz haqq savaşında zəfər çaldı. Bu parlaq qələbə sayəsində “Ermənistanın güclü ordusu var”, “erməni xalqı döyüşkən xalqdır”, “Azərbaycan xalqı döyüşə bilmir” kimi mif və əfsanələrə birdəfəlik son qoyuldu.
Azərbaycan Ordusu hərb tarixində yeni döyüş taktikalarının müəllifidir. Bəzi aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, bizim qarşımızda, hətta dünyanın ən aparıcı ölkəsi olsaydı belə, onun da heç bir şansı olmayacaqdı. Bu, o deməkdir ki, Azərbaycan Ordusu istənilən çətin vəzifəni icra etməyə qadirdir.
Hazırda İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə

salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri tərəfindən Azərbaycan Ordusunun hərbi əməliyyatlarının mənimsənilməsi zərurəti qeyd edilir. Azərbaycan Silahlı Qüvvələrində ötən illər ərzində döyüş hazırlığı və manevr təcrübəsini artıran birgə hərbi təlimlərin keçirilməsi bu gün də diqqət mərkəzində saxlanılır. Qardaş Türkiyə ilə birgə reallaşdırılan hərbi təlimlər sayəsində Azərbaycan Ordusunun təcrübəsinin və taktik manevretmə səriştəsinin əsaslı şəkildə artırılması bunun bariz ifadəsidir.

Hərbi quruculuq işi Prezident, Ali Baş Komandan İlham Əliyevin dövlət siyasətinin strateji prioritetlərindəndir. Dövlətimizin başçısı bununla bağlı deyib: “Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərb yolu ilə həll edə bilərik. Ordunun güclənməsi, orduda nizam-intizamın güclənməsi, ordunun maddi-texniki bazasının möhkəmlənməsi, müasir silahların alınması – bütün bunlar buna görədir”.

Törədilmiş cinayətlərə görə Ermənistan məsuliyyət daşıyır

Birinci və İkinci Qarabağ müharibələrində Ermənistan Azərbaycana qarşı hərbi cinayətlər törədib. Bütün bunlara görə də ölkəmiz düşmənin beynəlxalq müstəvidə cavab verməsini reallaşdırmağı qarşıya mühüm vəzifə kimi qoyub. Qəsbkar işğal dövründə Azərbaycanın, demək olar ki, əksər yaşayış məntəqələrini dağıdıb və talayıb. İnfrastrukturu yerlə-yeksan edib. Maddi-mədəni irsi xaraba qoyub. Bütün bu vandallıqlar, barbarlıqlar haqqında beynəlxalq ictimaiyyət məlumatlandırılıb.

Onu da xatırladaq ki, Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilməyən düşmən təxribatlara əl ataraq, dinc mülki şəxsləri hədəfə almaqla dəhşətli müharibə cinayətləri törədib. Azərbaycanın şəhərləri ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutulub. Vətən müharibəsi dövründə namərd atəşlər nəticəsində 100-ə yaxın mülki şəxs həlak olub, 400-dən çox mülki şəxs yaralanıb, 5 mindən çox ev dağılıb, yaxud ziyan çəkib.

Basdırılmış mina xəritələrinin Azərbaycana təqdim edilməməsi də rəsmi İrəvanın hərbi cinayətkar olmasının növbəti sübutudur. Basdırılmış yüz minlərlə mina bərpa işlərini əsaslı şəkildə ləngidir və mülki əhalinin həyatı üçün təhdid törədir. Müharibə başa çatandan bugünədək 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək həlak olub və ya öz sağlamlığını itirib.

Obyektiv həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün çalışan jurnalistlərin sülh dövründə öz peşə vəzifələrinin icrası zamanı həlak olmaları faktı da dünya jurnalistləri tərəfindən qınanılmalıdır. Beynəlxalq ictimaiyyətin susması və bu cür insidentlər ilə bağlı rəsmi bəyanat və ya qətnamələrin qəbul olunmaması “ikili standartlar” siyasətinin davamlı təzahürüdür. Hər bir mina partlayışı atəşkəsin və sülhün pozulması kimi qiymətləndirilə bilər. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar Ermənistanı minaların xəritələrini vermədiyinə görə qınamalı və rəsmi İrəvan hüquqi məsuliyyət daşımalıdır.

Yaralanan döyüşçünün yarası hər bir azərbaycanlının yarasıdır

“Mən hər zaman qazilərin yanında olacağam”,– deyən Prezident İlham Əliyev əslində cəmiyyətimizdə bütün müharibə iştirakçılarına olan münasibətini bildirib. Yaralanmış müharibə iştirakçılarının reabilitasiyası və onların sosial məsələlərinin

həlli istiqamətində görülən işlər sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır. Azərbaycan xalqı mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.
Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımıza sancan, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən əsgər və zabitlərimizə həsr olunan silsilə tədbirlərin həyata keçirilməsi davamlı xarakter alıb. Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısındakı şəhidlərin banklar qarşısında kredit öhdəlikləri silinib. Şəhid və qazi ailələrinə dəstək göstərilməsində Azərbaycanda milli həmrəylik ənənəyə çevrilib və bu məqsədlə bütün aidiyyəti dövlət qurumlarının potensialı səfərbər olunub.
Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək,şücaət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirən silahlı qüvvələrin hərbi qulluqçuları Prezident, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar.
Müharibə dövründə əlini, qolunu itirən qazilərimiz üçün ən müasir protezlər sifariş edilib. Ehtiyacı olan bütün qazilərə, şəhid ailələrinə dövlət tərəfindən lazımi köməklik göstərilib. İndiyədək 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə Bakı, Sumqayıt və Abşeron rayonunda cari ilin sonuna qədər mənzillər verilməsi qərara alınıb. Əlavə olaraq, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib. Azərbaycan Respublikası Prezidenti tərəfindən əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunan şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın qurulması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi olan “YAŞAT” Fondu yaradılıb. İndiyədək bu qurumda 62 milyon manatdan çox vəsait toplanılıb.
Xalq-Prezident-ordu vəhdəti yaşanan ölkə
Vətən müharibəsində tarixi qələbənin əldə edilməsində ən önəmli amil xalq-Prezident-ordu vəhdəti oldu. Bu, Azərbaycana qarşı başlanan hücum əməliyyatlarının ilk günlərindən özünü qabarıq büruzə verdi. Minlərlə gənc könüllü olaraq orduya yazıldı. Minlərlə ailə erməni təxribatlarından qorxaraq, evlərini tərk etmədi. Azərbaycan Prezidenti hər gün müharibənin gedişi ilə bağlı xalqı məlumatlandırdı.
Prezident İlham Əliyev müharibədən ötən müddətdə düşməndən təmizlənən ərazilərə davamlı səfərlər edərək, öz sevincini xalqla bölüşür, dağıdılan yaşayış sahələrini tez bir zamanda qurmaq, dirçəltmək əzmində olduğunu gerçəkləşdirilən layihələr əsasında vurğulayır.
Son 30 ildə havadarlarına arxalanan Ermənistandakı hərbi-siyasi xuntalar güman edirdilər ki, “xilaskar”ları bu dəfə də onların köməyinə gələcək. Lakin 44 günlük

müharibədə ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti, xalq-Prezident-ordu vəhdəti ilə ermənilərin və havadarlarının bölgədəki siyasəti iflas ilə nəticələndi. Bütün təzyiqlərə, yalvarışlara, təhdidlərə baxmayaraq, Azərbaycan parlaq qələbə qazandı və tarixi ədalət bərpa olundu.
Ermənistanın revanşist ünsürlərinin qarşısında Azərbaycanın "dəmir yumruğu" dayanıb. Ali Baş Komandan İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır".
Rəsmi İrəvanın revanşist cəhdləri sadəcə intihar – Ermənistan dövlətçiliyinin sonu ola bilər. İşğalçı bu həqiqəti unutmamalı, bundan sonra öz gələcəyi haqqında düşünərkən, qonşu ölkələrin torpaqları haqqında xəyallara qapılmamalıdır.